Ədəbiyyat qəzeti



30 oktyabr/ 2021

# *Bir ocaq başında*



Oktyabrın 26-da Sabirabad Regional Mədəniyyət İdarəsinin və Azərbaycan Yazıçılar Biriliyi Aran bölməsinin birgə təşkilatçılığı ilə "Aran" toplusunun və Sabirabadda yaşayıb-yaradan Nübar Eldarqızının "Letargiya yuxusu" adlı kitabının təqdimat mərasimi olub. Təqdimatı Regional idarənin rəisi Fərid Qurbanzadə açaraq qeyd edib ki, şair və yazıçılarımızın istedadla yazılmış əsərləri xalqın mənəvi dünyasına xüsusi rəng qatır. Yaradıcı insanlar xalqın mənəvi paklaşma missionerləridirlər.

Yazıçılar Birliyinin Aran bölməsinin sədri Sərvaz Hüseynoglu rəhbərlik etdiyi qurumun bölgədə yaşayıb-yaradan söz adamlarının bir araya gəlməsindəki rolundan söz açıb. Qeyd edib ki, fəaliyyətimiz boyunca Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anarın bizə göstərdiyi etimadı doğrultmaga çalışmışıq.

Sonra şair və yazıçılardan Qənbər Əhməd, Rəbiyyə Qəvvas, Şahsuvar Əmrahov çıxış edərək təqdim olunan kitabların bədii məziyyətlərindən söz açıblar. Şair Nübar Eldarqızı kitabının təqdimatında əməyi olan hər kəsə dərin minnətdarlığını bildirib və yeni şeirlərini oxuyub.

***Aynur HİLALİ***